6. Qasımov R. Bir imzam vardır mənim. https://naxcivanxeberleri.com/cemiyyet/37808-bir-imzam-vardir-mnim-ramiz-qasimov-yazir.html

**FICTION AND DRAMATURGY IN NAKHCHIVAN IN 1990-1995**

***Aliyeva Nurlana***

***Summary***

The article examines the state of development of fiction and dramaturgy in the literary environment of Nakhchivan in 1990-1995. It is noted that along with poetry, fiction and drama have also developed during these years. People's writer Huseyn Ibrahimov, Hasan Fatullayev, Faraj Farajov, Dilsuz Dunyamaliyev and others were remembered with their prose works. Writers such as Kamala and Hasan Fatullayev worked in the field of drama. These works cover both publicly ordered topics and other issues of the time.

**ХУДОЖЕСТВЕННАЯ ЛИТЕРАТУРА И ДРАМАТУРГИЯ В НАХЧЫВАНЕ В 1990-1995**

***Алиева Нурлана***

***Резюме***

В статье исследуется состояние развития художественной литературы и драматургии в литературной среде Нахчывана в 1990–1995 гг. Отмечается, что наряду с поэзией в эти годы развивались художественная литература и драма. Народный писатель Гусейн Ибрагимов, Гасан Фатуллаев, Фарадж Фараджов, Дилсуз Дуньямалиев и другие запомнились своей прозой. Такие писатели, как Камала и Гасан Фатуллаевы, работали в области драматургии. Эти работы касаются как общественного порядка того времени, так и других вопросов.

***Rəyçi: Dos.Z.İsmayıl***
***Daxil olma tarixi 07 dekabr 2021-ci il***

UOT 82-1.512.162

**ARİF ABDULLAZADƏ POEZİYASINIDA VƏTƏNPƏRVƏRLİK**

***Əliyeva Pakizə İsrayıl qızı***
***ADPU-nun Şəki filialı***
***Aliyeva.pakize.filoloq@mail.ru***

**Xülasə:** *XX əsr Azərbaycan xalqının taleyində bir əsrdə qismətinə iki dəfə müstəqil cümhuriyyət qurmaq, əsrin yarısından çoxunu əsarət altında yaşamaq, bir neçə soyqırıma məruz qalmaq, əzəli torpaqlarının böyük bir qismini itirmək, öz yurdunda qaçqınlıq həyatı yaşamaq kimi çoxsaylı mürəkkəb hadisələrlə yadda qalır. Bu qədər mürəkkəb hadisələr heç şübhəsiz, ədəbiyyatda yeni mövzulara müraciət etmək üçün şərait yaradırdı. 60-80-ci illər Azərbaycan poeziyasında milli oyanışın bünövrəsi qoyulur. 90-cı illərin əvvəllərində Qarabağ hadisələri və mənfur qonşuların torpaq iddiaları, eləcə də azadlıq hərəkatı baş qaldırdıqda əksər şairlərin əsərlərində artıq açıq şəkildə vətənpərvərlik çağırışları ön plana keçir. Məqalədə həmin zaman kəsiyində Azərbaycan poeziyasında özünəməxsus üslubu ilə tanınan Arif Abdullazadənin poeziyasında vətənpərvərlik mövzusunun işlənmənməsindən söhbət açılır.*

*Ədəbi arenaya 60-cı illərdə qədəm basan Arif Abdullazadə (1940-2002) poeziyasının əsasında həm çoxəsrlik Azərbaycan folkloru, həm klassik ədəbiyyat, həm də yeni dövrün sərbəst şeir ənənələri dayanır. Dövrün bir çox müəllifləri kimi onun poeziyası da mövzu rəngarəngliyi ilə seçilir. İnsan və cəmiyyət, həyat və ölüm, arzular, insan və Yaradan və digər*

*mövzularla bərabər şair bütün yaradıcılığı boyu Vətən və onun taleyi məsələsini diqqətdə saxlayır. A.Abdullazadənin poeziyası əsasında apardığımız tədqiqat zamanı belə bir qənaətə gəldik ki, onun yaradıcılığında vətənpərvərlik məsələlərini üç dövr əsasında öyrənmək daha məqsədəuyğundur: 60-80-ci illər ərzində yazılmış nümunələr; 80-ci illərin sonundan sonra milli azadlıq hərəkatı ilə bağlı olan nümunələr və Azərbaycan müstəqillik əldə etdikdən sonra qələmə alınan nümunələr. Həmin nümunələr janr və tematika baxımından da bir-birindən fərqlənir. Onlarda vətən təbiətinin vəsfi, milli-mənəvi dəyərlərin təbliği, bütöv Azərbaycan ideologiyası, vətənin taleyi, Qarabağ hadisələri və s. məsələlər ön plana çəkilir. Bütün sadalanan məsələlər ədibin "Layla", "Son kişilər", "Dilsiz nə Vətən?!", "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirləri və "Ulu Qorqud" poemasından gətirilmə parçalar əsasında dəyərləndirilmişdir. Ümumiyyətlə, nümunələrin poetik tutumu, onlarda ifadə olunan problemlərin dərinliyi belə bir fikri söyləməyimizə əsas verir ki, bu nümunələr yüksək vətənpərvər ruha malikdir və onların dərsliklərə salınmasında fayda var.*

**Açar sözlər:** Arif Abdullazadə, vətənpərvərlik, poeziya, müstəqillik, milli ruh

**Key words:** Arif Abdullazadeh, patriotism, poetry, independence, national spirit

**Ключевые слова:** Абдуллазаде Ариф, патриотизм, поэзия, независимость, национальный дух

**Giriş**

XX əsr Azərbaycan xalqının taleyində bir əsrdə qismətinə iki dəfə müstəqil cümhuriyyət qurmaq, əsrin yarısından çoxunu əsarət altında yaşamaq, bir neçə soyqırıma məruz qalmaq, əzəli torpaqlarının böyük bir qismini itirmək, öz yurdunda qaçqınlıq həyatı yaşamaq kimi çoxsaylı mürəkkəb hadisələrlə yadda qalır. Bu qədər mürəkkəb hadisələr heç şübhəsiz, ədəbiyyatda yeni mövzulara müraciət etmək üçün şərait yaradırdı. 60-80-ci illər Azərbaycan poeziyasında milli oyanışın bünövrəsi qoyulur. 90-cı illərin əvvəllərində Qarabağ hadisələri və mənfur qonşuların torpaq iddiaları, eləcə də azadlıq hərəkatı baş qaldırdıqda əksər şairlərin əsərlərində artıq açıq şəkildə vətənpərvərlik çağırışları ön plana keçir. Məqalədə həmin zaman kəsiyində Azərbaycan poeziyasında özünəməxsus üslubu ilə tanınan Arif Abdullazadənin poeziyasında vətənpərvərlik mövzusunun işlənmənməsindən söhbət açılır ki, bu da ədibin poeziyası əsasında apardığımız genişplanlı tədqiqat işinin bir hissəsidir.

Ədəbi arenaya 60-cı illərdə qədəm basan Arif Abdullazadə (1940-2002) poeziyasının əsasında həm çoxəsrlik Azərbaycan folkloru, həm klassik ədəbiyyat, həm də yeni dövrün sərbəst şeir ənənələri dayanır. Dövrün bir çox müəllifləri kimi onun poeziyası da mövzu rəngarəngliyi ilə seçilir. İnsan və cəmiyyət, həyat və ölüm, arzular, insan və Yaradan və digər mövzularla bərabər şair bütün yaradıcılığı boyu Vətən və onun taleyi məsələsini diqqətdə saxlayır. A.Abdullazadənin poeziyası əsasında apardığımız tədqiqat zamanı belə bir qənaətə gəldik ki, onun yaradıcılığında vətənpərvərlik məsələlərini üç dövr əsasında öyrənmək daha məqsədəuyğundur: 60-80-ci illər ərzində yazılmış nümunələr; 80-ci illərin sonundan sonra milli azadlıq hərəkatı ilə bağlı olan nümunələr və Azərbaycan müstəqillik əldə etdikdən sonra qələmə alınan nümunələr. Həmin nümunələr janr və tematika baxımından da bir-birindən fərqlənir və onların geniş şəkildə öyrənilməsinə ehtiyac var.

**Tədqiqatın əsas hissəsi**

Arif Abdullazadənin poeziyasında vətənpərvərlik məsələlərini araşdırarkən ədibin müxtəlif illərdə işıq üzü görən "Arzular", "Könüllərin dünyası", "Sevin Azərbaycanı", "Səninlə sənsiz", "Ana dünyamız", "Bəxtimizin kitabı", "Tövbə duaları", "Qatarla uçmaqdan yorulan durna" və s. kitablarında, eləcə də müxtəlif mətbu orqanlarında işıq üzü görmüş şeirlərinə müraciət etdik. Qeyd etmək yerinə düşər ki, onunla eyni zamanda ədəbiyyata gələn nəslin nümayəndələri kimi, Abdullazadənin də yaradıcılılğında ilkin dövrlərdə klassikadan

daha çox modern Avropa və rus şeirinin formalarına meyil güclü idi. O da əsərlərinin böyük bir qismini sərbəst şeir şəkllərindən istifadə etməklə yaradırdı. 60-cı illər nəslinin yaradıcılığında olan yenilik və sərbəstlik formada özünü göstərdiyi kimi, heç şübhəsiz, ədəbi nümunələrin mövzu və problematikasında da önə çıxırdı. Abdullazadəni bu ədəbi epoxanın təmsilçisi kimi xarakterizə edərkən prof. Baloğlan Əhmədov yazır: "Azad düşüncənin özünəməxsus poetik ifadəsi ilə A.Abdullazadə 60-cıların poetik manifestinə yeni çalarlar gətirir, yeni istiqamətlər müəyyənləşdirir" [ 11, s. 11]

Dövrün ədəbiyyatını dərindən tədqiq edən və 60-80-ci illəri XX əsr Azərbaycan poeziyasının "Qızıl dövrü" adlandıran filologiya elmləri doktoru Vaqif Yusifli "Poeziyyanın yolları və illəri (1960-2000-ci illər)" monoqrafiyasında vətənpərvərlik ruhlu əsərlərə siyasi ədəbiyyatın bir hissəsi kimi dəyər verərək yazır: "Yetmiş-səksəninci illərdə siyasi lirikanın mövzu dairəsi də genişlənmişdir. Azərbaycanın birliyi, bötövlüyü, müstəqilliyi və azadlığı ideyası ilə yanaşı, turançılıq və türkçülüyün təbliği də siyasi lirikada aparıcı motivlərdən birinə çevrilməkdə idi". [13, s.173] Doğrudur, bu məsələdən danışarkən hörmətli alim Arif Abdullazadə yaradıcılığını nümunə gətirmir, lakin yuxarıda göstərilən bütün cəhətlərə eyni zaman kəsiyində yazıb-yaradan A.Abdullazadənin də poeziyasında yetərincə nümunələr tapmaq mümkündür.

Abdullazadənin şeirlərində vətənpərvərlik mövzusunu araşdırarkən şərti olaraq üç mərhələ əsasında təsnifat aparılarmağı məqbul bildik: 60-80-ci illər ərzində yazılmış nümunələr; 80-ci illərin sonundan sonra milli azadlıq hərəkatı ilə bağlı olan nümunələr və Azərbaycan müstəqillik əldə etdikdən sonra qələmə alınan nümunələr.

Arif Abdullazadənin ilk şeirlər kitabı 1964-cü ildə işıq üzü görən "Arzular"dır. Bu kitaba daxil olan nümunələr daha çox kosmopolit düşüncəni və insan varlığının mahiyyətini açamağa istiqamətlənsə də, kitabdakı "Layla" (1962) şeiri başdan-başa Vətənin vəsfidir. Və o vətən o zamanlar üçün qəbul olunduğu kimi heç də 15 "müttəfiq" – "qardaş" respublikanın birləşdiyi SSRİ deyil, məhz doğma Vətən, əsil Vətən – Azərbaycandır.

İlk baxışda hamıya tanış və missiyası məlum olan ana laylası şairin yozumunda oxucunun gözü qarşısında dəyişir. Şair anasından yuxusu qaçmış gecələrinə son qoymaq üçün layla oxumağını istəyir. Anasının laylası şairi yatırmaq, sakitləşdirmək yerinə daha da oyadır. Əslində şeirdə o zamançün dissident hesab olunacaq məqamlar yetərincədir. Gənc şairin yuxusunu qaçıran nədir? Burada biz İlk baxışda bu sualın cavabını vermək o qədər də asan deyil. Onun yuxusunu gənclik sevdası, ya da hansısa gündəlik qayğılar qaçırmamışdır. Ana laylası şairin gözləri qarşısında bir-birindən irağ düşən neçə-neçə mahalımız keçir, deməli, şairin dincliyini əlindən alan, yuxusunu ərşə çəkən Vətən dərtdidir:

Ucaldıqca bu nəğmənin
sədaları
Gözlərimdə Mil dolandı,
Muğan keçdi.
Sinəsinə gül-çiçəklər
səpələnmiş
Doğma Azərbaycan keçdi.
Xəzər boyu gur dalğalar
şahə qalxdı.
Göy gölümün göy gözləri
mənə baxdı.
Kür çağladı,
Araz yana-yana axdı.
Səsləndikcə bu tərənə,
Göz önümə
ömrüm boyu bir dəfə də

görmədiyim
Təbriz gəldi, Mərənd gəldi,
Başı qarlı Qoşqar gəldi,
Səhənd gəldi... [1, s. 28]

Beləliklə, hamının "böyük vətən"dən yazdığı bir zamanda hələ ilk kitabı işıq üzü görən gənc şair məhz "doğma Azərbaycan"dan söz açır, o taylı-bu taylı Azərbaycandan. Ən vacibi isə budur ki, o həmin vətənə qayıtmağın, onu unutmamağın yolunu milli varlığımızın şah nəğməsi olan müqəddəs ana laylası ilə mümkünlüyünü vurğulayır. Vətən beynəlmiləlçilik və şüarçılıqla xilas ola bilməz, məhz damarlarda axan qanı coşduran ana laylası, öz nəğməmiz, milliliyimizdədir xilas.

İlk kitabdan başlanan milli kimlik və vətən duyğusunu şair nəinki şeirlərində, həmçinin sonrakı müxtəlif janrlı əsərlərində dəfələrlə dilə gətirir. Şairin müxtəlif illərdə qələmə aldığı "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Vətən", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Qürbətdə darıxırıq", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirlərində də şüarçılıqdan qaçmaq, pafoslu danışmaq tənqid olunur, Vətənə sevginin sığallı, ütülü sözlərdə yox, vətəndaş qəlbinin döyüntüsündə olmağın vacibliyi dönə-dönə dilə gətirilir.

Tanınmış şair-publisist Fikrət Sadığın "obrazlı çağırış ruhu ilə seçilən" nümunə kimi xarakterizə etdiyi [12, s. 4] "Sevin Azərbaycanı" (1970) adlı şeirinin yazıldığı bir zamanda hələ SSRİ-nin və xalqlar dostluğunun vəsfinə əsərlər yaradılır, həmin əsərlər Dövlət Mükafatlarına layiq görülürdü. Lakin gənc olmasına və yaşıdlarının bir çoxunun çap olunmaq üçün heç olmasa görünüş üçün məlum tematikaya müraciət etmələrinə baxmayaraq, Abdullazadə çəkinmədən milli birlik ideyasını irəli sürür. O yazır ki, Vətən, torpaq onun üərində yeriyənlərin fərdi keyfiyyətləri və çatmazlıqları nəzərə alınmadan küll halında sevilməlidir, çünki Vətəndir:

Sevin Azərbaycanı –
tozundan, küləyindən
hərdənbir bezsəniz də,
Əhmədi, Məhəmmədi,
məni, onu, onları
sevə bilməsəniz də. [7, s.3]

Şeirin sonrakı misralarında şair ürək ağrısı ilə yazır ki, onsuz da kiçik olan, onsuz da zaman-zaman bölünmüş, parçalanmış bu torpağı qorumağın tək yolu birlikdən keçir. Bir daha qeyd edək ki, xalqlar dostluğu və sosializmin təntənəsi yox, məhz milli birlik. "Sevin Azərbaycanı" şeirində şair 1935-ci ildə sovet ideoloqlarından olan S.Kirovun şərəfinə qədim adı dəyişdirilərək "Kirovabad" edilən, Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncənin adını məqsədli şəkildə qürurla çəkir (Gəncənin tarixi adı 1989-cu ildə bərpa olunmuşdur):

Mən uzaqdan yazıram
bu şeir – məktubumu,
burdan səmaya qalxsan
yumruq boyda görünər
öz doğma torpağımız.
Bu yumruğa sığışar
nə qədər yaxınımız,
nə qədər uzağımız.
bu yumruğu açmayın,
qoyun düyünlü qalsın,
açsanız,
açılacaq,
neçə rəngə çalacaq

cizgilərlə bölünmüş
əliçi xəritəsi,
böyünəcək bir anda
damarlara,
barmaqlara,
dırnaqlara,
Bakılara,
Gəncələrə,
Qazaxlara... [7, s.4]

1982-ci ildə işıq üzü görən "Bir ovuc torpaq" romanı Böyük Vətən Müharibəsində almanlara əsir düşdükdən sonra təqiblərdən qorxduğuna görə SSRİ-yə qayıtmayan və Türkiyədə yaşayan azərbaycanlı İsmət bəyin illər boyu sürən vətən həsrətinin ifadə olunduğu romandır. Və romanda İsmət tək deyil. Müxtəlif zamanlarda Türkiyədə sığınacaq tapmış bir çoxları da eyni dərdi yaşayır və onların yeganə ümidi ölərkən qəbirlərinin üzərinə Leyla xanım adlı bir azərbaycanlının nə vaxtsa vətəndən gətirdiyi torpaqdan bir ovuc töküləcəyinədir. [2]

A.Abdullazadənin 1988-ci ildə işıq üzü görən eyniadlı kiatabına daxil olan "Duyum" romanında da bu mövzuya qayıdılır. Müəllif yazır: "Yurdun böyüyü-kiçiyi yoxdur. Yurd bir alaçıqdan da ibarət ola bilər". [3, s. 17] Və hər nə boyda olsa da, onun sadəcə bir adı var – Vətən. Vətənsə qorunmalıdır. Bu fikir 1989-cu ildə həmvətənlərimiz əzəli torpaqlarında ermənilər tərəfindən qovulmağa başlayarkən qələmə alınmış "Yurd" adlı şeirində belə ifadə olunmuşdur:

...Yurdun böyüyü, kiçiyi,
yaxşısı, pisi olmur,
Yurddur – demək doğmadır,
doğmadır demək Yurddur,
Yurdun Vətən ətirli çiçəyisənsə,
kürrəmizin harasına atılıb qalsan,
onu döyüş bayrağıtək
son anacan əllərindən buraxma,
zaman-zaman öz içindən keçirib
bir dünyaya tanıtdır,
öz içindən, damarından keçir sən,
Yurd nə ələ gələndir,
Yurd nə əldən gedəndir, -
zamanların sellərinin ağzında
dərələşən, dağlaşan,
gündüz olub yaxınlaşan,
gecə olub uzaqlaşan
Yurdun
bircə qarışı da Vətəndir! [9, s. 34]

Elə buradaca qeyd etmək yerinə düşüərdi ki, bir çox qələm yoldaşları kimi Arif Abdullazadənin də 60-80-ci illərdə yazdığı şeirlərinin bir qismində müstəqilliyə çağırış, azadlıq mübarizəsi başqa xalqların taleyi ilə bağlı yazılmış nümunələrdə son dərəcədə cəsarətlə dilə gətirilir. Əsası haradasa əsrin əvvəllərində əsərlərinin mövzusunu Azərbaycandan uzaqlardan götürən dahi Hüseyn Cavid tərəfindən qoyulan bu tendensiyaya XX əsr Azərbaycan şairlərindən S.Vurğun, R.Rza, B.Vahabzadə, Ə.Kərim, V.Səmədoğlu və başqalarının yaradıcılığı üçün aktual olmuşdur. A.Abdullazadənin "Baham adaları", "Qaraçılar", "Azadlıq (Havanaya)", "Havanalı bir ana", "Bir qitə balladası (Amerika)" və s.

kimi şeirləri bu qəbildən olan poetik nümunələrdir. “Baham adaları” (1966) şeirində okeanın ortasında bataqlıqlar içində, iqlimi və təbii şəraiti çox pis olan bu adalara həsəd səslənir sanki:

Köksündə qızılın olsaydı,
Yaxud qızıla bərabər uranın, qazın olsaydı,
Çoxdan axışardılar qoynuna,
Əvvəl bir yekə minnət qoyardılar boynuna,...
Səndən də bərbad yerləri “abad” eləyiblər
Baxmayıb küləyinə, palçığına, istisinə,
Göz tutub gəlirin tüstüsünə
yaradıblar, qurublar,
Sonra da
ədəb-ərkanla çıxıb
boynunda oturublar... [4, s.44]

Əslində müəllifin kimə və nəyə işarə etdiyini anlamaq üçün o qədər də arif olmağa gərək yoxdur. Müstəmləkəçilik əleyhinə yazılsa da, buradakı sərvətlərə köksü talan olunub, dağ çəkilən, “abad” olmaq adıyla bərbad edilən Azərbaycandır. Təqribən eyni dövrdə, eyni mövzuda yazılmış “Bir qitə balladası” (1966-67) şeiri Amerikanın yerli əhalisi olan hinduların həyatının təsviri müəllifin azadlıq haqqında lirik-fəlsəfi düşüncələrinin ifadəsidir. Ağdərili müstəmləkəçilərin əliylə məhv edilən, torpağı, sərvətləri, milli kimliyi talan olunan, “yersiz gəldi, yerli qaç”ın növbəti qurbanı olan, haqlıykən haqsız duruma salınan hindulara “Amerika” deyə xitab edərkən şair yenə də Azərbaycandan yazır. Buradakı “sən baxmayıb saçlarının sarısına” [5, s.236], “Ağ bənizlər ağ etdilər” [5, s.240] ifadələrində müstəmləkəçilərin ümumiləşmiş obrazı gizlənmişdir:

Elin gedib,
Dilin gedib,
Nə dinməyə sözün qalıb,
Nə görməyə gözün qalıb.
Dodağına
“Sus” kəlməsi yapışdırıb
bağlayıblar,
Gözlərini qapayıblar
Mədəniyyət pərdəsilə.
Düşünürsən, dinmək olmur.
Bu qapanmış gözlərinlə
Hey baxırsan, görməyirsən –
göz yorulmur.
Sən baxırsan
Var-yoxunu talayırlar,
Diri-diri
Sinəndə od qalayırlar –
sən baxırsan...
Qara rəngin solub gedir,
Nəsillərin zaman-zaman
ölüb gedir,
sən baxırsan. [5, s.242]

Şair Baham adalarının, Amerikanın yerli sakinlərinin şirniklənərək mala-mülkə satılmaları, Avropaya bir qarın çörək – iş dalınca səpələnən, bir vaxtlar dünyaya hakim olanların “qullara qul olan” taleyinə acıyır, onları mübarizəyə səsləyir. Arif Abdullazadənin həcmcə çox da iri olmayan “Türklər”(1976) adlı şeirində ortaq türk dastanlarındakı türk obrazının - “gözü qan dolu”, “üzü tüklü” “bu türklər”in - bir zamanlar cəsarəti və mərdliyi ilə

geniş coğrafiyaya hakim olmasından, lakin şairin yaşadığı zamanda təəssüf ki, öz yurduna kənardan baxmasından, öz yurdunda qərib olmasından və s. bəhs olunur. Müəllif əslində yaşadığı ölkədə sovet ağalığının, əsarətinin mövcudluğundan gileylənir, lakin diqqəti yayındırmaq üçün güzaran dalınca Avropaya səpələnmiş türklərə acıyır. Bir zamanlar ağa olanların, indi hansısa ağalara sığınmasına acıyır. [8, s.35-36]

Arif Abdullazadənin şeirlərində bütöv Vətən var - "kəsərsiz bir qılıncla yarıya bölünmüş" Vətən. Həmin şeirlərdə kənardan həsrətlə baxdığımız, adını ehtiyatla dilə gətirdiyimiz əldən getmiş torpaqlarla çağırışla bərabər, tamamillə eyni təəssübkeşliklə yerlibazlıq, məhəlliçilik, vətəni mahallara, bölgələrə bölməyə də qarşı çağırış da səslənir. "Bənzərsiz bir hekayət" (1987), "Adım, soyum" (1989) kimi şeirləri məhz həmin çağırışların ifadə olunduğu nümunələrdəndir:

...Harda, nə vaxt soruşsalar haralısan,
cavabım bir, sözüm birdir:
Qarabağın dar günündə qarabağlı –
şuşalıyam,
ağdamlıyam,
xankəndliyəm,
bərdəliyəm,
yeri gəlsə bu torpağın hər parçası,
qarışıçün
əl-ayağı zəncirlərə can verməyən
bir dəliyəm.
...... Boy yaşımı, il yaşımı soruşsalar,
dünən, bu gün, sabah adlı
zamanların çaylarından
damla-damla axıb gedən,
tükənməyən bir anam mən,
millәti türk,
doğma yurdu Azərbaycan,
İnsan oğlu İnsanam mən. [5, s. 26]

Cənub mövzusu şairin "Analı dünya", "Zaqrub çayı", "Təbrizin daşlı yolu", "Təbrizdə bir gün", "Bənzərsiz bir hekayət", "Odla su arasında" və başqa şeirlərində dilə gətirilir, bayatılarımızdan başlayaraq həsrət rəmzi kimi ədəbiyyatımızda dəfələrlə mərkəzi obraza çevrilən Araz, Xudafərin, Təbriz özünəməxsus poetik dillə bu mətnlərə daxil edilir. Bir vaxtlar Şərqi Ukraynanı Qərbi Ukraynadan ayıran Zaqrub çayına həsr etdiyi eyniadlı şeirdə də (1980) müəllif Arazı yada salır. [8, s.45]

Arif Abdullazadənin sevet dönəmində milli oyanış ruhunda yazılan əsərlərindən bəhs edərkən 1980-ci ildə yazılan və ilk dəfə 1983-cü ildə "Səninlə sənsiz" adlı kitabında işıq üzü görən "Ulu Qorqud" poeması xüsusi qeyd olunmalıdır. [8, s.93-135] Əsərdən bəhs edərkən yalnış olaraq bəzi tədqiqatçılar onun müstəqil kitab şəklində çap olnduğu nəşrin tarixinə əsaslanmaqla onu əsasən Qarabağ hadisələri ilə bağlayaraq müharibə dövründə təbliğat vasitəsi kimi əhəmiyyətindən söz açmışlar ki, bu fikirlə qismən razılaşa bilərik. Belə ki, 90-cı illərdə milli müstəqillik və vətənpərvərlik ideyaları, Qarabağ hadisələrinə, müharibə və ərazi bütövlüyü mövzularına müraciət olunması adi hal idi, müstəqil bir ölkədə günün mövzusundan, mübarizədən və azadlıqdan yazmaq üçün müəllifdən xüsusi cəsarət tələb olunmurdu. Lakin poemanın 1980-ci ildə yazıldığını nəzərə alsaq, oradakı vətən haryı, tarixi keçmişə münasibət, azadlıq və vətənpərvərlik tərənnümü tamamilə başqa bir aspektdən dəyərləndirilməlidir. Bizim subyektiv anlamımıza görə, A.Abdullazadənin "Ulu Qorqud" poemasını Qarabağ mövzusu ilə bağlamaq yolverilməzdir və poemada yer alan vətənpərvərlik

çağırışları, orada haqqında söz açılan müəyyən tarixi hadisələr barədə 1980-ci ildə söz açılması müəllifdən xüsusi cəsarət tələb edir. Məs,

Ən sondasa
Çağımın əvvəlində yurd salan,
Imzalar içində
imzasını arayan,
Hadilərin, Sabirlərin
zamanların arxasından, önündən
ucalan gur səsləri,
nəhayət,
bu günümün
ili əsrə bərabər,
inadlı inamı,
yorulmaz həvəsləri. [10, s. 48]

İstiqlal aşiqi Məhəmməd Hadini (1879-1920) ümumtürk düşüncəsinin ifadəsi olan “Dədə Qorqud kitabı”nın adı ilə bağlı bir poemada xatırlamaq, onun ən təəssübkeş misralarına müraciət etmək hələ Azərbaycanın SSRİ-nin tərkibində olduğu vaxtda “günümüzün yorulmaz həvəsləri” ilə bağlamaq istiqlal arzusunun ifadəsi idi. “Kitabi Dədə Qorqud”dan qaynaqlanaraq yazılmış bu fəlsəfi poemada öz zamanına görə çox yüksək vətənpərvərlik, mübarizəyə çağırış ruhu, kökə bağlılıq məsələləri, ərənlik önə çəkilir.

90-cı illərin hadisələri, milli azadlıq hərəkatı, soydaşlarımızın doğma ata-baba torpaqlarından qovulması, Qarabağ hadisələri Arif Abdullazadənin şeirlərindəki vətənpərvərlik çağırışlarına yeni çalarlar gətirir. Gün keçdikcə torpaq itkisi, şəhid xəbərləri və didərginlik azalmır və şair yazır:

Torpağımız həmsərhəddi torpağımıza,
Torpağımız həm də səddi torpağımıza,
Torpağımız hələ dərddi torpağımıza,
Qoca dünya özbaşına fırlanır hələ. [5, s. 30]

Arif Abdullazadənin vətənpərvərlik mövzusunda şeirlərindən söz düşərkən demək olar ki, bütün tədiqatçıların yada saldığı daha bir nümunə var. Bu, 1995-ci ildə qələmə alınmış “Çeçen olmaq istəyirəm” adlı şeirdir ki, ədib özündən qat-qat güclü Rusiyaya qarşı mübarizə aparan çeçenlərin cəsarətinə hardasa həsəd apararaq yazır:

..gözüm paxıl, sözüm nağıl,
bu şeytanlar dövrəsində,
bu nağıllar ölkəsində
nağıllardan düşüb qalan
bir qara div, bir əjdaha,
bir cin olmaq istəyirəm,
sən dövranın işinə bax...
Türk oğlu Türk ola-ola
Çeçen olmaq istəyirəm. [5, s. 34]

“Dilsiz nə Vətən?!”, “Şəhidlik andımız”, “Sevgilər”, “Oğul istəyir Vətən”, “Belə olur”, “Anamın kitabı”, “Daş yağışı”, “Ömürdən uzun ümid”, “Hələ ki...”, “Yad nəfəslər”, “Zamanın boyu”, “Yaxın üfüqlər”, “Dərd bir olsa”, “Şəhid ürəkləri” kimi əksəriyyəti 90-cı illərdə yazılmış nümunələr də tematikası baxımından vətənpərvərliyə dayanır. Həmin şeirlərin təhlilindən gəldiyimiz qənaət bundan ibarətdir ki, onlarda 60-80-ci illərdə yazdığı əsərlərdə olduğu kimi şair çağırışa və milli oyanışa yer ayrılsa da, əvvəlki mübarizlik hiss olunmur, onun yerini məğlub ölkənin vətəndaşının küskünlüyü və təəssüfü tutmuşdur. “Ulduzların karvan yolu” (1999) lirik-psixoloji poemasında (silsilə üslubunda yazılmış şeirlərdən ibarətdir) uzun yollardan sonra yorulmuş şair həyatın ziddiyyət dolu acı həqiqətlərini dilə

gətirilmişdir. Həmin silsiləyə dünyada insanın yeri, insanlaraarası münasibətlər, dostluq, Yaradan və insan, tale və alınyazısı, şairlik və s. məsələlər kimi doğma yurdun taleyi məsələsinə də yer ayırmışdır. Həmin poemada Abdullazadə belə yazır:

Kiçilə-kiçilə “böyük” olmuşuq,
Hələ bizdə qalan torpağımıza
Çəkilməz, dözülməz bir yük olmuşuq,-
Yükləyən də bizik, daşıyan da biz.
Dağların köksünə qürbət əkən də ,
Daralan yollara daşlar tökən də,
Böyük sarayları qoyub qaçan da,
Mağara yolunda daş oyan da biz.
“Vətən, vətən” deyə nalə çəkdikcə,
Vətən çiçəkləri hər gün yumulur,
Kəndlər kiçildikcə,
şəhərlərimiz
Qürbət quşlarına yağlı yem olur.
Qıfıllı qapılar, quruyan evlər
Tüstüsüz-ocaqsız sıralandıqca
Çadırlar karvanı baş alıb gedir,
Ölən yurd yerindən aralandıqca
Zaman öz içində boşalıb gedir. [9, s.235]

Bu parçanı oxuduqca şairin ittihamını açıqca görmək mümkündür, şair “biz” deyərkən yaşanmış məğlubiyyətdə hamının payını görür, “dağların köksünə qürbət əkən”, yurd yerlərini “qürbət quşlarına yem edən”lərin elə hamımız olduğunu dilə gətirir. 2002-ci ildə dünyasını dəyişən şairin son dövr şeirlərində bu və buna bənzər nümunələr yetərincədir. Bəlkə də yaşasaydı, son aylarda xalqımızın mübarizə ruhunda baş verən dönüş, torpaqlarımızın böyük bir qisminin mübariz vətən oğulları tərəfindən azad olunması onun şeirindəki əvvəlki mübariz ruhu yenidən qaytara bilərdi.

**Nəticə**

Arif Abdullazadə şeirlərinin təhlilindən gəldiyimiz nəticə göstərir ki, onun yaradıcılığında vətənpərvəlik mövzulu əsərlərin sayı yetərincədir və şairin bütün yaradıcılıq dövrlərini əhatə edir. Onlar öz xarakteri etibarilə şairin yazıb-yaratdığı zaman kəsiyində bu qəbildən olan ilk nümunələr olmasa belə, şair artıq işlənmiş və ənənəvi mövzular daxilində orijinal poetik tapıntıları ortaya qoymağı bacarmışdır. Ədibin əsərlərində patriotizm on-on iki yaşlı uşaqların və ya qocaların əlində silah təsvir olunması qədər şüarçılıq həddində deyil. Əksinə yetərincə dərin məna və ifadə yükünə malik samballı nümunələr səviyyəsindədir. Abdullazadənin 60-80-ci illərdə istər milli, istər beynəlmiləl mövzularda yazdığı şeirlərdə ruh yüksəkliyi və çağırışçılıq üstünlük təşkil edir. Eyni tendensiya azadlıq mübarizəsi və Meydan hərəkatı baş qaldırdığı zamanlarda yazılan əsərlərə də şamil edilə bilər. 90-cı illərin ortalarından şairin ömrünün sonunadək yazdığı nümunələrdə bütün yaradıcılığında olduğu kimi vətənpərvərlik mövzusunda yazılmış əsrələrində də ümidsilik, dərin pessimizm və küskünlük notları diqqət çəkir. Abdullazadənin vətənpərvərlik tematikalı şeirləri üçün vahid bir janr, vəzn və ya şeir qəlibi yoxdur, əsas diqqət məfhumların daxili məna yükünə yönəldilmişdir. Düşünürük ki, prof. Abdullazadənin şeirlərində vətənpərvərlik mövzusu bir məqalənin daxilində araşdırıla bilməyəcək qədər genişdir, həmin şeirlər milli kökə qayıdış, bütöv Vətən, milli tamlıq kimi bir sıra məsələlər baxımından araşdırmalar üçün mövzu verir və onların aparılması XX əsr Azərbaycan ədəbiyyatının öyrənilməsinə töhfə verə bilər.

***Ədəbiyyat***

1.Abdullazadə A. Arzular. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1964, 45 səh.

2.Abdullazadə A. Bir ovuc torpaq. Bakı, Gənclik, 1982, 288 səh.
3.Abdullazadə A. Duyum. Bakı, Gənclik, 1986, 368 səh.
4.Abdullazadə A. Hər yerdə, hər zaman. Bakı, Azərnəşr, 1969, 73 səh.
5.Abdullazadə A. Qatarla uçmaqdan yorulan durna. Bakı, Mücrü Nəşriyyatı, 164 səh.
6.Abdullazadə A. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1991, 336 səh.
7.Abdullazadə A. Sevin Azərbaycanı. Bakı, Gənclik, 1979, 102 səh.
8.Abdullazadə A. Səninlə sənsiz: şeirlər və poema. Bakı, Yazıçı, 1983, 134 səh.
9.Abdullazadə A. Tövbə duaları: şeirlər. Bakı, Çaşıoğlu, 2003, 357 səh.
10.Abdullazadə A. Ulu Qorqud, Azərbaycan Respublikası "Kitab" cəmiyyəti, 1999, 94 səh.
11.Əhmədov B. Ömrünün sonu dünyanın sonuna düşməyən şair – Arif Abdullazadə.
12.Abdullazadə A. Tövbə duaları: şeirlər. Bakı, Çaşıoğlu, 2003, 357 səh., səh. 7-14
13.Fikrət Sadıq. Redaktordan. Abdullazadə A. Tövbə duaları: şeirlər. Bakı, Çaşıoğlu, 2003, 357 səh., səh. 3-6
14.Yusifli V. Ədəbiyyatın yolları və illəri (1960-2000). Bakı, Mütərcim, 2009, 404 səh.

## PATRİOTİSM IN ARIF ABDULLAZADEH'S POETRY

***Aliyeva Pakiza Israil***

***Summary***

The article deala with the development of the theme of patriotism in the poetry of Arif Abdullazadeh, who is known for his unique style in Azerbaijani poetry at that time. Like many authors of the period, his poetry is distinguished by the variety of themes. Along with a man and society, life and death, dreams, a man and the Creator, and other topics, the poet focuses on the Motherland and its destiny throughout his career. During our research based on the poetry of A.Abdullazadeh, we came to the conclusion that it is more expedient to study the issues of patriotism in his work on the basis of three periods: the examples written during the 60-80s; the examples related to the national liberation movement after the late 80s and the examples written after Azerbaijan gained independence. These examples also differ in genre and theme.

The description of the nature of the homeland, the promotion of national and spiritual values, the ideology of the whole Azerbaijan, the fate of the homeland, the events in Karabakh and other issues come to the fore. All the listed issues have been evaluated on the basis of  the author's "Lullaby", "The last men", "What is the motherland without language ?!", "Love Azerbaijan", "My life is my homeland!", "Between fire and water", "A unique story", "My name, my family" ",“ Our Martyrdom Oath ",“ Stone Rain ",“ Throughout the Time ",“ Still ... ", “ I Want to Be Chechen ",“ Loves "and other poems and excerpts from the poem“ Ulu Gorgud ". In general, the poetic capacity of the examples, the depth of the problems expressed in them give us reason to say that these examples have a high patriotic spirit and are useful in their inclusion in textboo.

## ПАТРИОТИЗМ В ПОЭЗИИ АРИФА АБДУЛЛАЗАДЕ

***Алиева Пакиза Исраил кызы***

***Резюме***

XX век запоминается в судьбе азербайджанского народа многочисленными сложными событиями, такими как создание независимой республики два раза за одно столетие, жизнь под игом более половины века, несколько геноцидов, потеря значительной части исконных земель, жизнь в качестве беженца на своей земле. Такие сложные события, несомненно, создавали условия для обращения к новым темам в литературе. В азербайджанской поэзии 60-80-х годов закладывается фундамент национального пробуждения. В начале 90-х годов, когда карабахские события и земельные притязания ненавистных соседей, а также поднявшее голову движение за

свободу, в произведениях большинства поэтов уже откровенные патриотические призывы выходят на первый план. В статье рассказывается о разработке темы патриотизма в поэзии Арифа Абдуллазаде, известного в то время своеобразным стилем в азербайджанской поэзии.

Эти примеры также различаются по жанру и тематике. В них прославление природы Родины, пропаганда национально-духовных ценностей, идеология Азербайджана в целом, судьба Родины, карабахские события и др. вопросы выдвигаются на первый план. Все перечисленные вопросы литератора были оценены на основе таких стихов, как "Колыбельная", "Последние мужчины", " Какая Родина без языка?!" "Любите Азербайджан", "Моя жизнь – Родина моя!", "Между огнем и водой", "Уникальная история", "Мое имя, мой род", "Наша клятва мученичества", "Каменный дождь", "Протяжение времени", " Пока что...", "Хочу быть чеченцем", "Севгиляр" и других стихов, а также на основе приведенных отрывков из поэмы "Улу Коркуд" . В целом, поэтическая вместимость примеров, глубина изложенных в них проблем дают основание утверждать о том, что эти примеры обладают высоким патриотическим духом и в их включении в учебники имеется польза.

***Rəyçi: dosent Kamil Adışirinov***

***ADPU-nun Şəki filialının Humanitar fənlər kafedrasının 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***

***Daxil olma tarixi 04 noyabr 2021-ci il***

**UOT:811.**

# TƏRCÜMƏDƏ RAST GƏLİNƏN QRAMMATİK PROBLEMLƏR MƏNA VƏ QRAMMATİK FORMA

***Əliyeva Ülvuyyə Hümbət qızı***

***Gəncə Dövlət Universiteti***

***aliyev_1989@list.ru***

**Xülasə**: *Qrammatik qanunlar hər hansı bir dilin daxili təkamül qanunları ilə əlaqədardır. Bu şərtlər baxımından hər bir dilin qrammatik qanunları digər dillərdən fərqlənir. Tərcümə prosesində rast gəlinən çətinliklərin böyük bir hissəsi də məhz buradan qaynaqlanır.*

*Xarici dillərin qrammatik xüsusiyyətləri burada müşahidə olunan çətinliklər bu dillərin tərcüməsində müəyyən çətinliklər yaradır. Tərcümə prosesində isə bu çətinliklər artıq qəbul olunmuş üsullarla səviyyələnir. Mürəkkəb cümlələrin tərcüməsində əsasən budaq cümlələrin tərkiblərlə əvəz olunması müşahidə olunur.*

*Ümumi tərcümə nəzəriyyəsinə gəldikdə isə,belə mürəkkəb faktların ümumiləşdirilməsi, bir neçə dilin müqayisəsi zamanı bu qrammatik uyğunluqların üst-üstə düşməsi problemi müəyyən əhəmiyyət kəsb edir. Bu baximdan bir konkret dildən digərinə tərcümə zamanı qrammatik özəlliklərin nəzərə alınması vacibdir.*

*Dil və təfəkkür arasındakı vasitəçi rolunu qrammatik kateqoriya yerinə yetirir. Təfəkkür və dil kateqoriyaları fərqlidir. Bu fərq onların mahiyyətini araşdırmağa imkan verir. Təfəkkür öz kateqoriyalarını sərbəst dəqiqləşdirə bilir.*

*Dil kateqoriyaları isə sistemə mənsubdur.*

**Açar sözlər:**Qrammatik qanunlar,tərcümə prosesi, qrammatik xüsusiyyətlər, tərcümə nəzəriyyəsi, dil və təfəkkür, funksional imkanlar, kateqoriya anlayışı, ilkin inkişaf formaları, qrammatik forma və məna, təyin budaq cümləsi